Filologiya üzrə fəlsəfə doktoru, dosent Afaq Xürrəmqızının "Arzu - Qəmbər" dastanı: Azərbaycan və İraq - türkman variantlarının müqayisəli tipologiyası" adlı ("Elm və təhsil", 2024) kitabı folklorşünaslığımıza müqayisəli-tipoloji araşdırma müstəvisində dəyərli töhfədir. Monoqrafiyanın elmi redaktoru prof.dr. Necdet Yaşar Bayatlı, rəyçiləri dosentlər Səkinə Qaybalıyeva və Şakir Albalıyevdir.

Ön sözdə müəllif "Arzu-Qəmbər" dastanı haqda ümumi məlumatları digər dastanlarımızla müqayisəli fonda diqqətə çəkir və xüsusi olaraq göstərir ki, "Arzu-Qəmbər" dastanı əsasən qadın mühitində geniş yayılıb, qadın yaradıcılığı nümunəsi kimi qəbul olunur".

Kitabın "Arzu - Qəmbər" dastanının Azərbaycan variantları" adlanan birinci bölməsində Afaq Xürrəmqızı dastanın ölkəmizdə mövcud olan variantlarından söhbət açır, dastanın bütöv şəkildə və yarımçıq halda mövcud olan əsas doqquz variantı haqqında mühüm məlumatları diqqətimizə çatdırır:

"Dastanın Azərbaycan variantlarından danışmazdan öncə, qeyd edək ki, 1971-ci

# "ARZU-QƏMBƏR"İN TİPOLOJİ-MÜQAYİSƏLİ TƏQDİMİ

ildə Bakıda dastanın Kərkük variantı prof. Qəzənfər Paşayevin təqdimatında işıq üzü görmüşdür. Məhz bundan sonra dastana maraq yaranmış, Azərbaycanda mövcud olan, xalq içərisində yaşayan dastan mətnləri toplanmağa başlanmışdır. Azərbaycanda hal-hazırda dastanın doqquz variantı qeydə alınmış sayıla bilər. Onlardan biri və birincisi heç yerdə çap olunmayan toplama materialıdır. Beləliklə, xronoloji ardıcıllıqla bu mətnl?r? nəzər yetirək.

Birincisi, dastanın hələ heç yerdə çap olunmamış və R.Xəlilov və O.Əliyev tərəfindən toplanmış variantıdır ki, ən?nəvi dastandan fərqli olaraq daha çox dastanın nağıl variantını xatırladır. Bu mətn 1971-ci ildə Xanlar rayonu (toplandığı zaman Xanlar adlanan, indiki Göygöl rayonunun) Kolayır kəndindən Mehdiyeva Şirinxanımın dilindən qələmə alınmışdır. Toplanma yerinə görə bu mətni Göygöl variantı adlandırmaq mümkündür" (s.6).

Bu minvalla Afaq xanım digər variantlarla bağlı da zəruri informasiyaları bir-bir açıb göstərir. Bu yetərli təqdimatdan sonra tədqiqatçı "Arzu - Qəmbər" dastanının Azərbaycan variantlarının süjet qarşılaşdırması" adlı yarımbaşlıqla araşdırmasına davam edir. "Folklorşünaslıqda ümumtürk məhəbbət dastanlarının struktur təhlilinin geniş yayılmasına" diqqət çəkən müəllif Türkiyədə belə bir təcrübənin ənənə halı aldığını qeyd edir, Azərbaycanda isə professorlar M.H.Təhmasib və M.Cəfərlinin məhəbbət dastanlarının strukturoloji təhlillərinin olduğunu göstərir. Daha sonra bu sahədəki mövcud təcrübədən çıxış edərək "Arzu - Qəmbər"in süjetini on epizod üzrə ayırıb təhlil aparır:

"I. Qəhrəmanların vətəninin və ailələrinin təqdimi.

II. Qəhrəmanların dünyaya gəlməsi

III. Qəhrəmanların yetişməsi, gəncliyi və təhsili

IV. Qəhrəmanların aşiq olması

V. Məhəbbətin sınağa çəkilməsibilərziyin itməsi

VI. Qarşıya çıxan əngəllər və çətinliklər

a. yeməyə ağu-zəhər qatılması

b. Yeməyə ana südünün qatılması

VII. Cilovdarlıq

VIII. Ayrılıq

IX. Qəhrəmanın geri dönüşü

X. Sonluq

a. qəhrəmanların qovuşması

b. qəhrəmanların ölümü" (s.16).

Beləcə, A.Xürrəmqızı həmin bu epizodlar üzrə "Arzu - Qəmbər"in Azərbaycan variantlarının müqayisəli qarşılaşmasını aparır.

Bundan sonra tədqiqatçı "Arzu - Qəmbər" dastanının Azərbaycan variantlarında ortaq mövzulara bağlanan şeirlər - bayatılar" adlı yarımbaşlıqda fikirlərini davam etdirir.

*(Davamı var)*

***Ş.ƏLİFOĞLU***

Kredo.- 2026.- 4 fevral (№05).- S.15.